S.16.

KREDO

№ 69-70 (1247-1248) 15 noyabr 2024-cü il

# TƏZADLARIN TƏNTƏNƏSİ

## *yaxud Nübarın "İlk insan və son insan" esse-şeiri haqqında düşüncələr*

Bu adda təqdim olunan esse şeir Nübar Eldarqızı nın bu gün oxuduğum şeiridir... Esmer Huseynova nın paylaşımında oxudum... demək bu şeirin siqlətini məndən də əvvəl duyanlar olub... bilmək üçün nəyisə gərək əvvəlcə duyasan...

Esse şeir həyat haqqında çox acı təssüratla başlayir...

Başqa sözlə müəllif dərdin zirvədindən gəlir onu düya biləcək insanların mənəvi mühitinə...

*Mən korlar kəndində doğulmuşam; karlar şəhərində yaşayıram.*

*Çölümü səhranın bəyaz günəşi yandırdığından, içimdəki qarlar şəhərində yaşayıram.*

*Cırcıramaların cırıltısından, qarğaların qarıltısından bülbül nəğmələrimi kimsə eşitmirö İçimdəki daş kitabələri kimsə oxumur.*

Müəllif əsərin lirik qəhrəmanı, əgər belə demək mümkünsə şahid təhkiyəçi faciəsini qışqırmadan, sakitcə, heç nəi unutmadan danışır.

Circiramaların ciriltısı, qarğaların qarıltısı... onun bülbül nəğmələri ilə üz üzədir...

Burada kim kimin səsini batırmaq uğrunda savaş gedir...

Tənhalığın ağrıları təhkiyəçinin yarpaq təqvimində, Robinzon xatırlamasında ifadə olunub...

*Robinzon Kruzodan sonra ağac yarpaqlarından təqvim düzəldib*

*Ömrümün günlərini sayıram.*

*Fikirlərimə günəşi nöqtə,ayı vergül qoyuram.*

*"İç"adlı gəzəgəndə*

*bütün günü özümü reklam edirəm.*

Ömrün günlərini saymaq faciəsi...

Xilaskarlıq missiyasının daşıyıcısı saniyələrin taqqıltısı ilə çağırılır..

Günəşin hər doğuşu həyata qayıdışdır, ayın işıq salması bitməyən ümiddir....

Nübar Eldarqızını tanımağa lüzum qalmır... düşüncələr sirayət edici təsiri ilə onu göstərir... qalır onu başa düşmək...

Yazır, sözlərin ahəngi, mənası dəyişə dəyişə duyğularını sözə gətirir... çağırış inadla siqnalları ötürməkdədir.

*Qəlbimdəki qorxu tamaşaçıların şüuraltına "məni al!"deyə saniyədə 60 dəfə siqnal göndərir.*

Ədəb satanlar haqda... bəlkə bir az sonra danışa bildim...

Qızıl silsilə kimi sıralanan cümlələri gözdən irağa qoymursan, birdən bir görkəzmə məna gözdən yayınıb keçər...



Of... mənasız adamların mənasız cəfəng söz adına töhmət sözləri gəlib ədəb satanların bazarında mən də varam deyir...

Yiyəsi ölmüş dillər də dil dil ötüb bəh bəh deyir... onda deyirsən , ilahi cəmiyyət adlanan toplum bumu....

Müəllif onları çox yumşaq yamanlayır... nadan oxucu adı ilə...

*- Ədəb satanlar bütün bazarları bağladılar;*

*Yenə dəllal kişilər, həyasız arvadlar neçə cərrah redaktəsindən çıxmış şeirləri bakirə, "təmiz beçə balı, kənd şoru,nehrə yağı"adı altında sırıyırlar nadan oxuculara.*

*Nizaminin, nəsihət verən Dədə Qorqud şeirləri,*

*Füzulinin qədərinə boyun əymiş, qismətiylə barışan ah-nalələri,*

*Nəsiminin dünyaya meydan oxuyan,-mənəm, mənəmliyi, yandırıcı, qaynar havalarda dolaba qaldırılan qış paltarları kimi hisslərin sərinləşəcəyi (?!) vaxtları gözləyir.*

Nubar sözündə girdaba düşmür... sözünün boyu ilə qalxır. Gözləyir... gözlədiyinin gələcəyinə də inanır. Nizaminin, Dəfə Qorqudun, Nəsiminin, Füzulinin... adlarını çəkir, şübhəsiz, ad övliyalara təskinlik üçün tapınır...

Hər halda bağtı çatlayıb ölmür ona görəki, özündən öncə əsrlərin tufanından keçmiş zirvələri görə bilir...

Nübar sanki təlaşlı bir həyatı yaşamağın xaosunu duyur və rəngləri ayırmaqda insanlara yardımçı olmaq istəyi... sənətin missiyası da rəngləri ayırmaqda insanlara yarfımçı olmaqdır...

Özü daha dəqiq ifadə edir...

*Adam bəzən olmadığı dövrü,yaşamadığı xoşbəxtliyi özləyir.*

*-Bizim nəsil elə vaxtda dünya evinə girdi ki,*

*gördük bura cənnət xəyallarının belə alınıb satıldığı nəhəng bir bazardı.*

Çox sərt bir məntiqlə sözünə son verir... cənnət xəyalların alınıb satıldığı məkanda meyarlar çox qarışıq olar..

Sn insan və ilk insan müqayisəsi morze əlifbası ilə gələcəyin düşüncəsinə kod ötürür...

*Son insan ilk insandan daha qəddarmış! Eh...*

*- Ağrının* zirvəsində yaşayan şair,dağ ətəyini sel aparır, xəbərin varmı?!*

Burada Ağrı sözünün üstünə işarə qoyub. *Ağrı dağı anlamını yada salır... Nübar Eldarqızının fikir dağı zənnimcə daha üstün görünür.

Təzadların təntənəsi. Nübarın esse şeirini dramatik bir əsər kimi görürəm...

...Nübar Eldarqızı, demək olar ki, bütün şeirlərin düşüncələrə təsir gücündədir, fikirləri qidalandıran qaynaqdır...

Ədəb satanlar bütün bazarları bağladılar.

Zənnimcə bu şeirin zirvəsi ədəb satanların bütün bazarları bağlaması haqqında xəbər kəsiyidir.

Hər insan bir ölkədir.

Səyahətçisi də özünü bilən şəxsin özü...

Şeirin uğurunu təmin edən lirik mənin özünü dərki ilə bağlıdır.

Ağrının zirvəsi... qarlarla örtülüdür. biganəlik qarları, görməzlik torları, bəlkə üstümüzdə qalaqlanmış tarlarla.

Hərdən düşünürəm... ədəbin bazarı kasadfırsa mənəvi ölümün qətl divanında dar ağacları qurulub.

Söz çoxdur... əzablarıma qıymazsan.

Ağrının zirvəsindən oxunan nəğmələr məni inandırır ki, düşünə bilən söz adamları hələ də var...

Ağrı sözünə şərh artıqdır... çünki sərbdəki addan şeirdəki Ağrı daha çox mənalıdır.

Onsuz da hər misra, hər söz çoxqatlıdır.

Elə ədəb bazarının bağlanması qədər.

Ölməyən şeirlərə qürur elegiyası.

Şeirin ölməzlik ruhu lirik qəhrəmanın kədərinə meydan oxuyur.

Təzadların təntənəsi. hər kəs tərəfini seçsin...

***Əli Rza XƏLƏFLİ***
***10.11.2024***